© İshaq Cəlalian, 2011

# İİR-in FARS OSTANI ŞƏHƏRLƏRİNİN İQTİSADİ-COĞRAFİ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

**İshaq Cəlalian**

*Pəyamnur Universiteti, Şiraz şəhəri, İİR*

Şəhərlər əhalinin məskunlaşmasında və təsərrüfat sahələrinin ərazi təşkilində əhəmiyyətli yer tutur. Bu məntəqələrdə toplanan əhalinin sayı artdıqca onların iqtisadi, sosial və mədəni potensialı da güclənir, ətraf ərazilərin sosial-iqtisadi inkişafında, əhalinin məşğulluğunda və onlara xidmət göstərilməsində rolu yüksəlir. Bu proseslər özünü İran İslam Respublikasının cənubunda yerləşən Fars ostanında da göstərir.

Məqalədə 1976-2006-cı illəri əhatə edən son 30 illik dövrdə ostanda məskunlaşan şəhər əhalisinin sayının artımı, onların qruplaşması, tərkibində baş verən kəmiyyət və keyfiyyət dəyişiklikləri təhlil olunur. İri şəhərlərin sayı ilə yanaşı, onların əhalisinin sayı da sürətlə artır.

İranın cənubunda yerləşən Fars ostanının şimalında İsfahan və Yəzd, qərbində Buşəhr, Qoxgiluyə və Boyerəhməd, cənubunda Hörmözqan, şərqində Kerman ostanları yerləşir. Ölkənin ümumi ərazisinin 7,4%-ni təşkil edən ostanın sahəsi 122,7 min km$^2$-dir.

İran İslam Respublikasının ərazisi insanların qədim məskunlaşma areallarının yayıldığı yerlərdən biridir. Ölkə daxilində insanların məskunlaşdığı qədim şəhərlərin qalıqlarına çox yerdə təsadüf edilir. Fars ostanının ərazisi də insanların qədimdən yaşadığı, əhalinin müxtəlif təsərrüfat fəaliyyəti növləri ilə məşğul olduğu yerlər sırasındadır. İran İslam Respublikası ərazisinin hər yerində olduğu kimi, Fars ostanı ərazisində də vaxtilə mövcud olmuş böyük şəhərlərin qalıqlarına rast gəlinir. Məsələn, vaxtilə ölkənin paytaxtı olmuş Persepol (farsca Təxte-Cəmşid) şəhərinin qalıqları indiyə qədər saxlanılır.

Fars ostanının sosial-iqtisadi, demoqrafik inkişafı həmişə, bütün yaşayış məntəqələrində olduğu kimi, şəhərlərin də sosial-iqtisadi, demoqrafik və məkan inkişafı ilə müşayiət olunmuşdur. Məhsuldar qüvvələrin inkişaf səviyyəsi yüksəldikcə maddi istehsal sahələrinin, sosial xidmət üzrə infrastruktur obyektlərinin texniki təchizatı, davamlı, nisbətən ucuz və sərfəli enerji təminatı yetərli olduqca şəhərlərin inkişafı sürətlənmiş, onların sosial-iqtisadi və demoqrafik potensialı daha da yüksəlmişdir. Şəhərlərin sosial-iqtisadi potensialının yüksəlməsi, onların maddi və sosial infrastruktur obyektlərinin dinamik inkişafı ətraf yaşayış məntəqələrinin nüvə rolu oynayan böyük şəhərlərlə sıx istehsal-iqtisadi əlaqələrin intensivləşdirilməsi fonunda həyata keçmişdir. Nəticədə müxtəlif səviyyəli məskunlaşmanın dayaq karkasları rolunu oynayan nüvə şəhərlər meydana gəlmiş, onların təsir dairəsi kifayət qədər böyük əraziləri əhatə etmişdir. Eyni zamanda, şəhərlər də ətraf ərazilərin qarşılıqlı təsirinə məruz qalmış, onların təbii, bəzən sosial-iqtisadi və demoqrafik potensialından istifadə edərək bazasını artırmışdır və bu güc indi də artmaqda davam edir.

Şəhərlər ətraf ərazilərin müəyyən funksiyalarını öz üzərinə götürməklə həm də özlərinin sosial-iqtisadi inkişafında, təsərrüfatın, sosial infrastruktur obyektlərinin ərazi təşkilində və yenidən qurulmasında müəyyən çətinliklərlə qarşılaşır. Belə bir oxşar proses tədqiqat apardığımız Fars ostanı ərazisində də müşahidə edilir.

Fars ostanında şəhərlərin demoqrafik inkişafının əsas istiqamətlərinin təhlili 1970-ci illərdən sonrakı dövrü əhatə edir. Burada şəhər məskunlaşma sisteminə 72 şəhər yaşayış məntəqəsi daxildir (1-ci cədvəl). Bu şəhərlərdə, son statistik rəsmi məlumatlara görə, 2.696.980 nəfər şəhər əhalisi məskunlaşmışdır. Bu da İranda yaşayan şəhər əhalisinin 2,4%-nə bərabərdir. Şəhərlərin əhalisinin orta sayı və ya orta böyüklüyü 37458 nəfər təşkil edir.

Fars ostanı şəhərlərinin əhalisinin sayına görə qruplaşdırılması və onların inkişaf meylinin verildiyi 1-ci və 2-ci cədvəllərin təhlili zamanı, hər şeydən əvvəl, nəzərə çarpan odur ki, əhalisinin sayı az olan şəhərlərin sayı getdikcə azalır, orta və böyük şəhərlərin isə sayı 1976-cı ildən sonra çoxalmaqda davam edir. Bunun da əsas səbəbi sosial-iqtisadi inkişaf, əhalinin demoqrafik artımı, xüsusilə də yüksək təbii artım amilləridir.

1-ci və 2-ci cədvəllərdən göründüyü kimi,

əgər 1976-cı ildə əhalisinin sayı 5 min nəfərədək olan kiçik şəhərlər ostanın bütün şəhərlərinin 44-nü və ya 61,11%-ni təşkil edirdisə və onlarda bütün ostanın şəhər əhalisinin 10,99%-i yaşayırdısa, 1996-cı ildə müvafiq olaraq ostanda əhalisinin sayı 5 min nəfərədək olan kiçik şəhərlərin sayı 18, onların şəhərlərin sayında xüsusi çəkisi 25,0% və bu şəhərlərdə yaşayan əhalinin payı 2,31% olmuşdur. 2006-cı ildə isə müvafiq surətdə 15 şəhərdə əhalinin sayı 5 min nəfərdən az olmuşdur, bu qrup şəhərlərin payı 20,83% təşkil edir. Onlarda şəhər əhalisinin 1,86%-i yaşayır (1-ci və 2 şəkillər). Bu şəhərlərə Balade (4159 nəfər), Liruyi (4975 nəfər), Əlamərvdəşt (3650 nəfər), Beyza (3239 nəfər) və s. şəhərlər daxildir.

Əhalisinin sayı 5 min nəfərdən 10 min nəfərədək olan ikinci qrup kiçik şəhərlərin sayı 1976-cı ildə 13 ədəd, payı isə bütün ostan şəhərlərinin 18,06%-ni təşkil edirdisə, onlarda ostanın bütün şəhər əhalisinin 9,11%-i yaşamışdır. Müvafiq olaraq 1996-cı ildə Fars ostanında əhalisinin sayı 5 min nəfərdən 10 min nəfərə qədər olan kiçik şəhərlərin sayı 23-ə yüksəlmiş, bu qrupun şəhərlərin sayında xüsusi çəkisi 31,95%-ə qədər artmış, əhalinin payı 7,27% olmuşdur. 2006-cı ildə isə müvafiq surətdə 22 şəhərdə əhalinin sayı 5 min nəfərdən 10 min nəfərə qədər olmuş, bu qrup şəhərlərin payı 30,56% təşkil etmişdir. Əhalisinin sayı 5-10 min nəfər arasında olan şəhərlərin qrupunda şəhər əhalisinin 6,0%-i yaşayır. Bu qrupda olan şəhərlərə Cəvim (6590 nəfər), Beyrəm (6531 nəfər), Bəhmən (6490 nəfər), Mehr (6307 nəfər) və s. aiddir.

Bu iki qrup kiçik şəhərlərin birlikdə sayı 1976-cı ildən 2006-cı ilə qədər olan 30 illik dövrdə 20 vahid azalmışdır, əhalinin xüsusi çəkisi isə müqayisə dövründə 20,10%-dən 7,86%-ə enmişdir.

Əhalisinin sayı 10-20 min nəfər arasında olan nisbətən kiçik şəhərlər qrupunun sayı artsa da, müqayisə dövründə onlarda yaşayan əhalinin xüsusi çəkisi, yəni ostanın bütün şəhər əhalisindəki payı azalmışdır. Belə ki, əgər 1976-cı ildə bu qrup şəhərlərin sayı 6 idisə, onların sayı 1996-cı ildə 15, 2006-cı ildə isə 13 şəhər olmuşdur. Ümumiyyətlə, ostanın şəhərlərində cəmlənən əhalinin payı isə 1976-cı ildə 8,61%, 1996-cı ildə 9,35%, 2006-cı ildə 6,95% təşkil etmişdir. Müqayisə dövründə onlarda məskunlaşan bütün ostan şəhərləri əhalisinin payı 1,66 vahid azalmışdır. Əhalisi10-20 min nəfər arasında olan şəhərlərə Seqar (11069 nəfər), Bunavat (10293 nəfər), Ərsincan (17820 nəfər), Fəraşbənd (17665 nəfər) və b. aiddir.

1-ci cədvəldən göründüyü kimi, əhalisinin sayı 20-50 min nəfər təşkil edən orta şəhərlərin sayı və onların şəhərlər arasında xüsusi çəkisi artmışdır. Eyni zamanda, bu kateqoriya şəhərlərdə yaşayan əhalinin mütləq sayı çoxalmışdır. Lakin daha böyük demoqrafik potensiala malik şəhərlərin əhalisinin sayının sürətlə artması nəticəsində onların şəhər əhalisinin sayında xüsusi çəkisi əhəmiyyətli dərəcədə azalmışdır. Məsələn, bu qrup şəhərlərin sayı bütün müqayisə dövründə 4 vahid artmışdısa, onlarda yaşayan bütün Fars ostanı şəhərlərinin əhalisinin payı 17,26%-dən 10,11%-ə qədər aşağı düşmüşdür. Bu qrupa Estehban (34564 nəfər), Xarvan (31992 nəfər), Lamərd (22156 nəfər), Kovar (22534 nəfər) və s. şəhərlər daxildir.

***1-ci cədvəl***

Fars ostanı şəhərlərinin əhalinin sayına görə qruplaşdırılması

| Şəhərlərin qrupları, nəfər | Şəhərlərin sayı | | | Şəhər əhalisinin sayı, nəfər | | |
|---|---|---|---|---|---|---|
| | 1976 | 1996 | 2006 | 1976 | 1996 | 2006 |
| 5 minədək | 44 | 18 | 15 | 107367 | 51932 | 50173 |
| 5-10 min | 13 | 23 | 22 | 88977 | 163673 | 161922 |
| 10-20 min | 6 | 15 | 13 | 84139 | 210570 | 187545 |
| 20-50 min | 6 | 9 | 10 | 168575 | 309383 | 272625 |
| 50-100 min | 2 | 5 | 9 | 101973 | 359345 | 567749 |
| 100-200 min | - | 1 | 2 | - | 103579 | 229635 |
| 200-500 min | 1 | - | - | 425813 | - | - |
| 500-1mln-dək | - | - | - | - | - | - |
| 1 mln-dan çox | - | 1 | 1 | - | 1053025 | 1227331 |
| **Cəmi** | **72** | **72** | **72** | **976844** | **2251506** | **2696980** |




**1-ci şəkil.** Fars ostanı şəhərlərinin sayına görə qruplaşdırılması

Məhsuldar qüvvələrin nisbətən iri və böyük şəhərlərdə cəmlənməsi, maliyyə yatırımlarının daha çox olması, maddi və sosial infrastrukturun yüksək inkişaf səviyyəsi demoqrafik potensialın da az vaxtda artmasına imkan verir. İqtisadi-coğrafi mövqeyi əlverişli olan nisbətən kiçik və orta şəhərlərin də iri şəhərlərə meyl etməsi son nəticədə onların da demoqrafik və sosial-iqtisadi cəhətdən yaxşı inkişaf etməsinə gətirib çıxarır. Bu halda şəhər aqlomerasiyaları yaranmış olur.

Təsadüfi deyildir ki, tədqiq edilən Fars ostanı şəhərləri içərisində əhalisinin sayı 50-100 min nəfər olan qrupda şəhərlərin sayı da, onlarda yaşayan əhalinin mütləq sayı və xüsusi çəkisi də artmışdır. Belə ki, bu kateqoriyalı şəhərlərin sayı 1976-cı ildə 2 (xüsusi çəkisi 2,78%), 1996-cı ildə 5 (6,94%), 2006-cı ildə 9 (12,5%) olmuşdursa, onlarda yaşayan ostan şəhər əhalisinin sayı 1976-cı ildə 102,0 min nəfər (şəhər əhalisinin sayında payı 10,44%), 1996-cı ildə 359,4 min nəfər (15,96%), 2006-cı ildə isə 567,8 min nəfər (21,05%) təşkil etmişdir (2-ci şəkil). Ümumiyyətlə, müqayisə dövründə bu şəhərlərin sayı 4,5 dəfə, əhalinin sayı isə 5,6 dəfə artmışdır. Fəsa (92020 nəfər), Kazerun (87329 nəfər), Firuzabad (59306 nəfər), Abade (55142 nəfər), İqlid (51329 nəfər), Darab (56032 nəfər) şəhərlərində əhalinin sayı 50 min nəfərdən çoxdur.




**2-ci şəkil.** Fars ostanında qruplar üzrə əhalinin sayı

Fars ostanının şəhər məskunlaşma sistemində əhalisinin sayı 100-200 min nəfər olan böyük şəhərlər qrupu 1996-cı ildən sonra formalaşmışdır. Bu şəhərlər qrupuna hazırda 2 şəhər - Cöhrəm (105285 nəfər) və Mərvdəşt (124350 nəfər) şəhərləri aiddir. Onların payına bütün Fars ostanı şəhərlərinin 2,78%-i düşdüyü halda, onlarda bütün ostan şəhər əhalisinin 8,52%-i yaşayır. Bu şəhərlər təkcə özlərinin demoqrafik potensialı ilə deyil, həm də sosial-iqtisadi potensialı ilə də fərqlənir. Bu şəhərlər ostanın şəhər məskunlaşma sistemində Şiraz şəhərindən sonra ikinci böyük istinad-dayaq karkaslarıdır. Şəhərlərin demoqrafik potensialı ierarxiyasında Şiraz şəhərindən sonra ikinci (Mərvdəşt şəhəri) və üçüncü (Cöhrəm şəhəri) yerləri tuturlar.

İran İslam Respublikasında, o cümlədən də Fars ostanı ərazisində əyalətlərin sosial-iqtisadi inkişafına, həyat şəraitinin yaxşılaşdırılmasına dövlət səviyyəsində diqqət artırılmışdır. Əsas mərkəz rolunu oynayan nisbətən iri şəhərlərlə müqayisədə əyalətdə, ucqar kənarlarda yerləşən yaşayış məntəqələrində, xüsusən də kiçik və orta şəhərlərdə yeni sənaye və sosial infrastruktur sahələri müəssisələrinin yerləşdirilməsi və onların inkişafının müxtəlif dövlət səviyyəli güzəştli tədbirlər hesabına dəstəklənməsi kiçik və orta şəhərlərin daha sürətlə inkişaf etməsinə səbəb olmuşdur. Məsələn, müqayisə etdiyimiz 1976-cı ildən 2006-cı ilə kimi ostanın ümumi şəhər əhalisi 2,76 dəfə artmışdırsa, bazis ilində (1976-cı il) iqtisadi, sosial, demoqrafik potensialı daha yaxşı olan Mərvdəşt şəhərində bu göstərici 2,47 dəfə təşkil etmişdir. Başqa sözlə, Mərvdəşt şəhərinin demoqrafik inkişaf tempi ümumi şəhər əhalisinin inkişaf tempindən az olmuşdur. Cöhrəm şəhərində bu rəqəm ostan üzrə olan 2,76 dəfəyə nisbətən 2,17 dəfə təşkil etmişdir və ya əhalinin ümumi sayının artımına görə geri qalma olmuşdur.

İran İslam Respublikasının, o cümlədən də Fars körfəzinin şimal-qərb hissəsinin siyasi, sosial-iqtisadi, mədəni mərkəzi həmişə **Şiraz şəhəri** olmuşdur. Təsadüfi deyildir ki, müəyyən tarixi dövrlərdə Şiraz şəhəri İran dövlətinin siyasi-inzibati mərkəzi olmuş, paytaxt funksiyası yerinə yetirmiş, mühüm nəqliyyat yollarının qovşağında yerləşmiş, əlverişli iqtisadi-coğrafi mövqeyi ilə fərqlənmişdir. Həm də Şiraz şəhəri İran İslam Respublikasının mühüm neft-qaz hasilatı və emalı regionunun mərkəzində yerləşməklə, özü və ətraf ərazilər üçün mühüm təsərrüfat-təşkilat funksiyası yerinə yetirmişdir, hazırda da bu funksiyanı yerinə yetirməkdədir. Ona görə də Şiraz şəhəri güclü sosial-iqtisadi bazası – infrastrukturu ilə yanaşı, həm də demoqrafik potensialı ilə seçilmiş və seçilməkdədir. Son statistik rəsmi məlumatlara görə (2006-cı il), Şiraz şəhərində 1.227.331 nəfər əhali qeydə alınmışdır. Bu da Fars ostanı şəhərlərinin ümumi əhalisinin 45,51%-i deməkdir. Başqa sözlə, Fars ostanı şəhər əhalisinin yarısından bir qədər azı bu şəhərdə yaşayır. Əyalətlərin böyük şəhərlərlə müqayisədə sosial-iqtisadi inkişafına dövlət tərəfindən önəm verilməsinə baxmayaraq, yenə də Şiraz şəhəri demoqrafik cəhətdən müvafiq orta ostan səviyyəsindən daha sürətlə inkişaf edir. Belə ki, 1976-cı ildən 2006-cı ilə kimi ostanın ümumi şəhər əhalisi 2,76 dəfə artmışdırsa, bu şəhərdə əhali artımı 2,89 dəfə təşkil etmişdir. Şiraz şəhərinin Fars ostanının ümumi şəhər əhalisi içərisindəki payı 1976-cı ildə 43,59%, 1996-cı ildə 46,77%, 2006-cı ildə isə 45,51% təşkil etmişdir.

*2-ci cədvəl*

Fars ostanı şəhərlərinin əhalinin sayına görə qruplaşdırılması

| Şəhərlərin qrupları, nəfər | Şəhərlərin payı, faiz | | | Şəhər əhalisinin payı, faiz | | |
|---|---|---|---|---|---|---|
| | 1976 | 1996 | 2006 | 1976 | 1996 | 2006 |
| 5 minədək | 61,11 | 25,00 | 20,83 | 10,99 | 2,31 | 1,86 |
| 5-10 min | 18,06 | 31,95 | 30,56 | 9,11 | 7,27 | 6,00 |
| 10-20 min | 8,33 | 20,83 | 18,06 | 8,61 | 9,35 | 6,95 |
| 20-50 min | 8,33 | 12,50 | 13,88 | 17,26 | 13,74 | 10,11 |
| 50-100 min | 2,78 | 6,94 | 12,50 | 10,44 | 15,96 | 21,05 |
| 100-200 min | - | 1,39 | 2,78 | - | 4,60 | 8,52 |
| 200-500 min | 1,39 | - | - | 43,59 | - | - |
| 500-1mln-dək | - | - | - | - | - | - |
| 1 mln-dan çox | - | 1,39 | 1,39 | - | 46,77 | 45,51 |
| **Cəmi** | **100,00** | **100,00** | **100,00** | **100,00** | **100,00** | **100,00** |

Beləliklə, Fars ostanında şəhər məskunlaşma sisteminin strukturunda baş verən dəyişikliklərin təhlili aşağıdakı iqtisadi-coğrafi nəticələrə gəlməyə əsas verir:

– ostanın şəhər məskunlaşma strukturunda daha kiçik şəhərlərin və onlarda yaşayan əhalinin sayı, həm də xüsusi çəkisi azalmaqda davam edır;

– ostanın orta şəhərlərində yaşayan əhalinin mütləq sayı artsa da, onlarda yaşayan əhalinin xüsusi çəkisi əhəmiyyətli dərəcədə azalmağa doğru gedir;

– ostanın şəhər məskunlaşma sisteminin strukturunda öz demoqrafik və sosial-iqtisadi potensialı ilə, həmişə olduğu kimi, hazırda da Şiraz şəhəri əsas yer tutur və onun payı artmaqdadır;

– ətraf ərazilərin – kiçik və orta şəhərlərin nisbətən öncül sosial-iqtisadi inkişafı həyata keçirilsə də, onlar öz artan demoqrafik potensialının yerlərdə qalmasını təmin edə bilmirlər. Nəticədə bütün ostan ərazisinin proporsional, nisbətən bərabər sosial-iqtisadi inkişafı prosesi getmir. Şiraz şəhəri təbii artımla yanaşı, həm də miqrasiya hesabına böyüyür.

## ƏDƏBIYYAT

MƏHDƏVI MƏSUD. 1995. Əhali coğrafiyasının əsasları və prinsipləri. Qomes.

ƏLI ƏSGƏR NƏZƏRI. 1989. İranın əhali coğrafiyası. Kosmologiya.

İRANIN SIYAHIYAALMA üzrə statistika məlumatları. 1976. Tehran.

İRANIN SIYAHIYAALMA üzrə statistika məlumatları. 1996. Tehran.

İRANIN SIYAHIYAALMA üzrə statistika məlumatları. 2006. Tehran.

***Məqaləyə c.e.n. N.Paşayev rəy vermişdir***